# Kilsənin və müxaliflərin ideoloji məğlubiyyəti

**Bakı Hərbi Məhkəməsində separatçı rejimin keçmiş rəhbərlərinə oxunan hökmlər Ermənistandakı revanşist müxalifəti, kilsə və onlara xaricdən dəstək verən dairələri ciddi şəkildə məyus edib. Çünki fevralın 5-də separatçı tör-töküntülərin üzünə oxunan hökmlər, sadəcə, çoxsaylı cinayətlər törətmiş ünsürlərin ağır formada cəzalandırılması deyil, eyni zamanda, onillər ərzində uydurulmuş miflərin və gorbagor olmuş "Artsax" xülyasının hüquqi müstəvidə dəfn edilməsi idi.**



O səbəbdən, bu şəxslərin dünyanın gözü qarşısında cəzalandırılması Ermənistan müxalifətinin və onlara qucaq açanların ideoloji məğlubiyyəti sayılır. Həbs olunan separatçıların verdiyi ifadələrdə müharibə cinayətləri və onların sifarişçiləri, xarici dövlətlərin münaqişədəki gizli rolları da ifşa olundu. Bununla da, erməni himayədarlarının "humanitar" kartdan istifadə edərək bu cinayətkarları xilas etmək cədhləri fiaskoya uğradı. Məhkəmə prosesi beynəlxalq aləmə göstərdi ki, separatizm və dövlət suverenliyinə qəsd heç vaxt cəzasız qalmır.

Ancaq erməni müxalifəti və kilsə yaranmış "fürsətdən" Nikol Paşinyan hökumətini zəiflətmək və Azərbaycanı hədəf göstərmək məqsədilə maksimum istifadə edirlər. Müxalif dairələr bu hökmləri Ermənistanın "milli rüsvayçılığı" kimi qiymətləndirir, Paşinyanı Bakıda məhkəmə qarşısında cavab verən şəxslərin taleyinə biganə qalmaqda və onların azad edilməsinə maraq göstərməməkdə ittiham edirlər. Hüquqşünas Siranuş Saakyan "ədalətli mühakimənin" təmin edilməməsi iddiasını irəli sürür. Kampaniyanın başında duran "Hayastan" bloku və terrorçu "Daşnaksütyun" partiyasının tərəfdarları Azərbaycana qarşı təhdid dolu videolar yayırlar. Şübhə yox ki, erməni müxalifətini və kilsəni separatçıların taleyi yox, Paşinyanı daha çox küncə sıxışdırmaq maraqlandırır. Əslində, revanşistlər də yaxşı bilirlər ki, separatçı rəhbərlərin törətdiyi konkret cinayətləri ört-basdır etmək qeyri-mümkündür. Paşinyan hökumətinin susqunluğu isə İrəvanın real vəziyyəti qəbul etmək məcburiyyətindən irəli gəlir.

Prosesə özünəxas şəkildə burnunu soxan düşmənlərdən biri də Rusiya Dövlət Dumasının üzvü, ermənipərəst Konstantin Zatulin olub. Zatulin Bakıda keçirilən məhkəmə prosesini "siyasi qisas" və "qondarma ədalət" adlandırıb. O, ittiham olunan şəxslərin heç vaxt Azərbaycan vətəndaşı olmadıqlarını iddia edərək, onların Azərbaycan qanunları ilə mühakimə edilməsini qanunsuz sayıb. Erməni sevdalısı Paşinyanı öz həmyerlilərini taleyin ümidinə buraxmaqda və "xəyanətdə" suçlayıb.

Zatulinkimilər unudurlar ki, Birləşmiş Millətlər Təşkilatı və bütün dünya birliyi Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır. Bu səbəbdən, Azərbaycanın öz ərazisində qanunsuz silahlı birləşmələr yaradan və separatçılıq fəaliyyəti göstərən şəxsləri mühakimə etməsi dövlətimizin legitim hüququdur. Beynəlxalq hüquqa görə, cinayət törədilən yerin qanunları əsas götürülür. Separatçı ünsürlər hansı ölkənin pasportunu daşımasından asılı olmayaraq, Azərbaycan qanunları qarşısında cavabdehlik daşıyırlar. Həmçinin ittihamlar, sadəcə, separatçılıqla bağlı deyildi, bu şəxslər dinc əhaliyə qarşı törədilmiş terror aktlarında, yaşayış məntəqələrinin bombalanmasında, Xocalı soyqırımında birbaşa iştirak ediblər, yaxud əmrlər veriblər. Bunlar beynəlxalq səviyyədə ağır cinayətlər hesab edilir. Üstəlik, Ermənistanın indiki rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan edib ki, bu da beynəlxalq sənədlərə əsaslanan bir reallıqdır.

Xülasə, məhkəmə proseslərinin beynəlxalq hüquq normalarına uyğun keçirilməsi, vəkillərin təmin edilməsi və prosesin işıqlandırılması üçün şərait yaradılması erməni müxalifətinin və onların dəstəkçilərinin bütün əsassız ittihamlarını alt-üst edir. Bakı Hərbi Məhkəməsinin çıxardığı qərarlar, sadəcə, hüquqi prosedur deyil, eyni zamanda 30 illik işğal, terror və separatizm dövrünə vurulan tarixi möhürdür. Bu hüquqi zəfər bölgədə davamlı sülhün və sabitliyin də ən böyük təminatıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2026.- 7 fevral (№24).- S.14.